Mimikaları və hərəkətləri canlə və ifadəlidir.
Yüksək fəallığa malik, işgüzar olurlar.
Həddindən artıq qayda-qanuna əməl edən olurlar.
Sürətli hərəkətə, çevik təfəkkürə, sürtli nitq tempinə malik olurlar.
Onlarda plastiklik yüksək olur.
Onlarda ekstravertlik yüksək olur.
Son dərəcə emosinal olurlar
təsir altına tez düşürlər

## XOLERİK

Həddindən artıq hövsələsiz,
Tez özlərindən çıxan olurlar.
Onlarda plastiklik zəif, rigidlik yüksək olur.
Ekstravertlik yüksək olur.
Müvazinətsiz olurlar.
Səbirsiz, tündməcaz olurlar
Maraqları sabit və davamlıdır

## MELANXOLİK

Senzitivlik, həssaslıq həddindən artıq yüksək olur.
Kiçicik bir işdən, hərəkətdən dərindən təsirlənirlər.
Hədsiz dərəcədə küsəyəndir.
Mimika və hərəkətləri ifadəli deyildir.
Səsləri zəif, hərəkətləri süstdür.
Onlarda özlərinə inam hədsiz dərəcədə aşağı olur.
Həddindən artıq təkliyə qapılırlar.
Onlarda introvertlik yüksək olur.

## FLEQMATİK

Özlərini hər yerdə sakit aparırlar.
Həddindən artıq soyuqqanlıdırlar, qaradinməzdirlər.
Onlarda plastiklik aşağı, rigidlik yüksək olur.
Onların mimikaları kasıb, ifadəsiz olur.
daxili əks-olunma yüksək olur.
Təkliyi sevirlər.
vərdiş və adətlərini olduqca ləng dəyişə bilirlər.
Olduqca işgüzar olurlar.
dözümlü və özlərini ələ ala biləndirlər.
Yeni adamlara çətin alışırlar.

# XARAKTER

Sizə kiçik bir hadisə danışım: Dayanacaqda durub avtobus gösləyirdim. 2 yeniyetmə oğlan əlləində qoğal dayanacağa yaxınlaşdılar. Onlardan biri qoğalı yarımçıq qoyub dayanacağın küncünə tulladı. Digər yeniyetmə onu danladı. «Niyə belə edirsən, günah deyilmi?». Yoldaşı əlini yelləyib söhbətini davam etdirdi. İkinci oğlan onun sözlərini dinləmədən yerə atılmış qoğalı götürüb yaxınlıqdakı beton hasarın üstünə qoydu. Bu zaman avtobus gəldi. Hər ikisi minib getdilər. Mn isə iki eyni yaşda, eyni cinsdən olan yoldaşların xarakterindəki fərqlər haqqında xeyli düşündüm. Bu iki oğlanın xarakter fərqlərini siz necə qiymətləndirərdiniz. Gəlin qısaca müzakirə edək.

# XARAKTER

**Konkret şəxsiyyət üçün tipik olan, fəaliyyət və ünsiyyət prosesində formalaşan və təzahür edən fərdi psixoloji xüsusiyyətlərin məcmusudur.**

# XARAKTERİN ƏSAS ƏLAMƏTLƏRİ

**İnsanın başqa adamlara münasibəti:** ünsiyyətlilik və qapalılıq, doğruçuluq və yalançılıq, qayğıkeşlik və laqeyidlik və s.

**İnsanın özü- özünə münasibəti:** şöhrətpərəstlik, lovğalıq, təvazökarlıq və s.

**İnsanın əməyə münasibəti:** əməksevərlik, tənbəllik, təşəbbüskarlıq və s.

**İnsanın əşyalara münasibəti:** səliqəlilik və ya pintilik.

# QABİLİYYƏT

İnsanlar müxtəlif sahələr üzrə qabiliyyətlərə malidirlər, lakin heç də hə kəs öz qabiliyyətlərindən səmərəli şəkildə istifadə edə bilmir.  Halbuki psixologiya elmində bunun üçün maraqlı vasitələr, texnikalar işlənilib. Onları tətbiq etməkdən ötrü əvvəlcə qabiliyyət haqqında müəyyən biliklərə malik olmaq lazımdır. Bu biliklər sizə, bir tərəfdən öz qabiliyyətlərinizi aşkar etməyə, digər tərəfdən onlardan yararlanmağa kömək edə bilər.

**İnsanın hər hansı bir və ya bir neçə fəaliyyət sahəsi üçün daha çox yararlı olduğunu göstərən fərdi psixi xassəyə QABİLİYYƏT deyilir**

**QABİLİYYƏTLƏRİN NÖVLƏRİ**

**Ümumi**

**Xüsusi**

**Qabiliyyətlərin bir vəya bir neçə fəaliyyətin müvəffəqiyyətli icrası üçün şərt olan özünəməxsus birliyi İSTEDAD adlanır.**

**Qabiliyyətlərin yaradıcılıq nailiyyətləri əldə etməyə imkan verən, həmin nailiyyətlərdə təzahür edən yüksək inkişaf etmiş pilləsi TALANT adlanır.**

**Bəzi insanların yaradıcı nailiyyətləri cəmiyyətin həyatında tam bir dövrü, əsri əhatə edir. Qabiliyyətin bu cür inkişaf səviyyəsi DAHİLİK adlanır.**

# YAŞ PSİXOLOGİYASI

İnsanın yaşı bir neçə sahə üzrə mərhələlərə bölünür. Xronoloji yaş, bioloji yaş, psixoloji yaş. Əgər siz psixoloji yaşınızı, onun inkişaf səviyyəsini öyrənsəniz digər sahələrə uyğun olub-olmadığını da aydınlaşdıraraq zəif tərəflərinizi inkişaf etdirə bilərsiniz. Digər tərəfdən, təhsil prosesinin iştirakçıları inkişafda olan uşaq, yeniyetmə və gənclərin yaş xüsusiyyətlərinə bələd olmalı, onlarla yaşına görə davranmalıdırlar. Ona görə də insanın yaş mərhələlərini bilmək, olduqca vacib məsələdir.

**YAŞ PSİXOLOGİYASInın predmetini insan psixikasının inkişaf dinamikasının, şəxsiyyətin psixi proses və psixi xassələrinin ontogenezdə inkişaf xüsusiyyətlərinin, psixi inkişafın hərəkətverici qüvvələrinin öyrənilməsi təşkil edir.**


Yaş psixologiyanın tədqiqat metodları
Müşahidə
Eksperiment
Testləşdirmə
Ana gündəliyi

## Yaş psixologiyasının əsas bölmələri

Uşaq psixologiyası

Yeniyetmələrin psixologiyası

Gəncliyin psixologiyası

Yaşlı adamların psixologiyası

Uzunömürlülük psixologiyası

# Yaş dövrləri və aparıcı fəaliyyət növləri

| | |
|---|---|
| Çağalıq (0-2ay) və Körpəlik dövrü (2ay- 1 yaş) | • Bilavasitə emosional ünsiyyət |
| Erkən uşaqlıq dövrü (1-3 yaş) | • Əşyavi manipulyativ fəaliyyət |
| Bağça yaşı dövrü (3-6 yaş) | • Rollu, qaydalı, süjetli oyunlar |
| Kiçik məktəb yaşı dövrü (6-10 yaş) | • Təlim fəaliyyəti |
| Yeniyetməlik yaş dövrü (10-11, 14-15 yaş) | • İntim şəxsi ünsiyyət |
| Gənclik yaş dövrü(15-21 yaş) | • Təlim peşə fəaliyyəti |


KÖRPƏLİK DÖVRÜ
ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ
APARICI FƏALİYYƏT NÖVÜ
2 AYDAN 1 YAŞA QƏDƏR
BİLAVASİTƏ EMOSİONAL ÜNSİYYƏT

# ERKƏN UŞAQLIQ YAŞ DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ 1-3 YAŞ

**APARICI FƏALİYYƏT-Əşyavi-manipulyativ fəaliyyətdir.**
**ÜNSİYYƏT FORMASI- böyüklərlə emosional ünsiyyətdir. Bu zaman CANLANMA KOMPLEKSI baş verir.**
**DİQQƏTinin yönəlməsi, mərkəzləşməsi formalaşır.**
**HAFİZƏ- Onları cəlb edən əşyaları qeyri-ixtiyari yadda saxlayırlar.**
**TƏXƏYYÜL- kiçik həcmli nağıllarla təxəyyülündə təsəvvür edir.**
**TƏFƏKKÜR- əyani-əməli xarakter daşıyır. Hərəkət və konkret cism və hadisələrlə bağlı olur. Uşağın yaşlılarla ünsiyyəti onun təfəkkürünün inkişafına təsir göstərir.**
**HİSSLƏR- sürətlə inkişaf edir, xüsusilə utancaqlıq hissi formalaşır. Uşağın şəxsiyyət olaraq formalaşması, “Mən”ini tanıması baş verir.**

**ERKƏN UŞAQLIQ DÖVRÜ**

**ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ**

***1 YAŞDAN 3 YAŞA QƏDƏR***

**APARICI FƏALİYYƏT NÖVÜ**

**ƏŞYAVİ MANİPULYATİV FƏALİYYƏT**

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ 3-6 YAŞ

**APARICI FƏALİYYƏT- OYUN,** insanların davranış və fəaliyyət normalarının mənimsənilməsi

**3-4 YAŞ** – özünü təsdiq, sözə qulaq asmamaq, tərlik, höcətlik

**TƏKBAŞINA OYUN -** əşyavi, quraşdırma, sujetli-rollu oyunlar və s.

**5-6 YAŞDA-**uşaqlarla birgə oyun, uşaqlar arasında liderlik və tabeçilik münasibətinin formalaşması

EDIP KOMPLEKSİ formalaşması və qarşısının alınması.

**PRAKTİK TƏFƏKKÜRÜN İNKİŞAFI-** quraşdırma oyunları daha çox inkişaf edir.

**RƏSM VƏ MUSİQİ QABİLİYYƏTLƏRİNİN İNKİŞAFI-** yaradıcılıq qabiliyyətinin inkişafı

**QAVRAYŞIN İNKİŞAFI-** diqqətin, qeyri-ixtiyaridən ixtiyariyə doğru inkişafı, hafizənin və iradənin inkişafı

**TƏXƏYYÜLÜN İNKİŞAFI**

**HƏR ŞEYLƏ MARAQLANMAQ-** ətraf mühit haqqında məlumatlar almaq üşün çoxlu suallar verirlər.

**MƏHFUMLARIN İNKİŞAFI**

**MƏKTƏBƏ HAZIRLIĞIN FORMALAŞMASI**


MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜ
ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ
APARICI FƏALİYYƏT NÖVÜ
3 yaşdan 6 yaşa qədər
rollu oyunlar, süjetli oyunlar, qaydalı oyunlar

# KİÇİK MƏKTƏBLİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ
# 6-10 YAŞ

**APARICI FƏALİYYƏT-** Təlim

**İDRAK PROSESLƏRİNİN YENİDƏN QURULMASI-** ixtiyari diqqətin, ixtiyari qavrayışın, mexaniki hafizənin, təfəkkürün inkişafı

**SÖZLÜ-MƏNTİQİ TƏFƏKKÜRÜN FORMALAŞMASI**-davranışın, iradənin, özünütənzimetmənin inkişafı. Oxu-yazı, riyazi hesablama bacarıqlarının mənimsənilməsi.

**MƏİŞƏT-ƏMƏK VƏRDİŞLƏRİNƏ YİYƏLƏNMƏK**

**ÜNSİYYƏT SAHƏSİNİN GENİŞLƏNMƏSİ**

**İNKİŞAFETDİRİCİ OYUNLAR TƏLİMDƏN SONRA İKİNCİ FƏALİYYƏTDİR.**

**ÖZÜNƏ İNAMSIZLIĞIN FORMALAŞMASI-** təlimdəki çətinliklər, böyüklərin tənqidi münasibəti, təlimə marağın itməsi özünəinamsızlıq yaradır.


KİÇİK MƏKTƏB YAŞI DÖVRÜ
ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ
APARICI FƏALİYYƏT NÖVÜ
6 YAŞDAN 10 YAŞA QƏDƏR
TƏLİM FƏALİYYƏTİ

# YENİYETMƏLİK YAŞININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ 11-15 YAŞ

**APARICI FƏALİYYƏTİ-** intim-şəxsi ünsiyyət

**İNTENSİV CİNSİ YETİŞMƏ VƏ İNKİŞAF-** orqanizmin güclü fizioloji yenidən qurulması

**QEYRİ-SABİT EMOSİONAL SFERA-** emosiya və əhvalların idarə olunmaması.

**ÖZÜNÜTƏSTİQ-**müstəqillik və özünü təsdiqə cəhdləri böyüklərlə münaqişəli münasibət yaradır

**ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN, XARAKTERİN İNKİŞAFI-** xarakterin aksentuasiyası özünü göstərir.

**ÖZÜNƏNƏZARƏT VƏ FƏALİYYƏTİ PLANLAŞDIRMANIN HƏLƏ ÇƏTİN OLMASI-** riskə, təcavüzə meyillilik

**TƏLİMDƏ SEÇİCİLİK, ÜMUMİ VƏ XÜSUSİ QABİLİYYƏTLƏRƏ SENZİTİVLİK**


YENİYETMƏLİK YAŞI DÖVRÜ
ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ
APARICI FƏALİYYƏT NÖVÜ
10-14 YAŞ(qızlar) 11-15 YAŞ (oğlanlar)
İntim şəxsi ünsiyyət

# İLK GƏNCLİK DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ 15-17 YAŞ

**APARICI FƏALİYYƏT-** təlim-peşə fəaliyyəti

**ÖZÜNÜDƏRK ETMƏNİN**-özü haqqında təsəvvürlərin, özünün zahiri görkəminin, mənəvi və iradi keyfiyyətlərin qiymətləndirilməsi

**İRADİ TƏNZİM YÜKSƏLİR-** özünütərbiyə imkanları meydana gəlir.

**DÜNYAGÖRÜŞÜ FORMALAŞIR**

**CİNSİ YETİŞMƏNİN BAŞA ÇATMASI**

**İLK MƏHƏBBƏT HİSSİNİN, DOSTLUĞUN** meydana gəlməsi

**ÖZ HƏRƏKƏTLƏRİNİ KİFAYƏT QƏDƏR DƏRK EDƏ BİLMƏMƏSİ**


GƏNCLİK YAŞ DÖVRÜ
ƏHATƏ OLUNDUĞU YAŞ DÖVRÜ
APARICI FƏALİYYƏT NÖVÜ
15-17 YAŞ (ilkin gənclik) 18-25 YAŞ(yetkin gənclik)
Təlim-peşə fəaliyyəti

# PEDAQOJİ PSİXOLOGİYA

**Gəlin əvvəlcə bu suallara cavab axtarmağa çalışaq.**

Suallar:

1. Pedaqoji psixologiya hansı məsələləri öyrənməlidir?
2. Pedaqoji prosesin iştirakçıları kimlərdir?
3. Pedaqoji prosesin tənzimlənməsində psixologiya elminin rolu nədən ibarət olmalıdır.

Pedaqoji psixologiyanın predmeti, vəzifələri, öyrəndiyi məsələlərlə tanış olduqca qoyduğumuz bu sualları daha əhatəli cavablandıra bilərik.

**PEDAQOJİ PSİXOLOGİYAnın predmetini insanın tərbiyə, təlim və pedaqoji fəaliyyətinin psixoloji qanunauyğunluqlarının öyrənilməsi təşkil edir**


Pedaqoji psixologiyanın tədqiqat metodları
Müşahidə
Eksperiment
Testləşdirmə
Fəaliyyət məhsullarının təhlili
Təşkiledici, prosedur, qiymətləndirici, faktların toplanması və işlənməsi ilə bağlı metodlar

**Pedaqoji psixologiyanın əsas bölmələri**

Tərbiyə psixologiyası

Təlim psixologiyası

Müəllim şəxsiyyətinin psixologiyası

Anomal uşaqlarla təlim və tərbiyənin psixologiyası

# TƏRBİYƏ

Hələ uşaqlıqdan ön çox eşitdiyimiz kəlmələrdən biri də «Tərbiyəli ol!»dur. Sizcə tərbiyəli olmaq üçün nə etmk lazımdır? Ümumiyyətlə, tərbiyə bizə nə verir, necə təsir göstərir? Bütün bu sualların cavabları tərbiyənin psixologiyasında öz əksini tapır. Psixologiya elmi tərbiyəyə tamamailəbaşqa nöqyteyi-nəzərdən yanaşır. Onu məcburi proses kimi qəbul etmir. L.S.Vıqotskinin bu sözləri fikirlərimizi daha aydın ifadə edir: «Tərbiyəni ruhun polisinə çevirmək olmaz!»

**TƏRBİYƏ**-şəxsiyyətin daxili və xarici amillərin təsiri altında baş verən inkişafının idarə olunmasıdır.

**Tərbiyə prosesinin mahiyyətini təşkil edir:**

**Tərbiyənin məqsədi**

**Tərbiyə olunan və tərbiyə edənin xüsusiyyətləri və onların qarşılıqlı münasibətləri**

**Tərbiyə prsesində istifadə olunan yollar**

**Tərbiyə psixologiyasının başlıca vəzifəsi şəxsiyyətin formalaşmasının psixoloji mexanizmlərini öyrənməkdir.**

**Yaşlılarla uşaqlar arasında aşağıdakı məna maneələri özünü göstərir:**

Konkret adama münasibətdə

Konkret tələbə münasibətdə

**Tərbiyəvi tədbir zamanı aşağıdakılar nəzərə alınmalıdır:**

**Şagirdin yaş və fərdi xüsusiyyətləri**

**Şagirdin daxil olduğu kollektivin xüsusiyyətləri**

**Tərbiyəvi tədbirlərin həyata keçirildiyi konkret şərait**

## Tərbiyədə psixoloji təsir vasitələri

**İnandırma – məntiqə əsaslanır, müəllimin şagirdin rasional dərketmə sferasına göstərdiyi təsirdir.**

**Psixoloji sirayət – qarşılıqlı əlaqə şəraitində müəllimin emosional təsirinə şagirdin şüursuz olaraq düşməsidir.**

**Təlqin – müəllimin şagirdin psixikasına təsiretmə mexanizmidir. Təlqin zamanı təfəkkür zəifləyir, yalnız qavrama və yaddasaxlam fəaliyyət göstərir**

**Təqlid – müəllimin təcrübəsini şagirdlərin şüurlu və şüursuz olaraq dərk etməsi mexanizmi, müəllimi yamsılamaqla öyrənmək**

**Özünütərbiyə insanın şüurlu olaraq qarşısına qoyduğu məqsədə ideal və inamlarına müvafiq şəkildə öz şəxsiyyətində dəyişikliklər etməyə yönəlmiş fəaliyyətdir.**


Özünütərbiyənin motivləri
Cəmiyyətin əxlaqi tələbləri
Kollektivin, yoldaşlarının hörmətini qazanmaq iddiası
Tənqid və özünütənqid
İşdəki çətinliklər
Ətrafdakıların nümunəsi, maddi həvəsləndirmə və s.

**“ÇƏTİN”** uşaqlar sözə baxmayan, şıltaq, tərs, intizamsız, kobud, tənbəl, yalançı və s.


Emosional sahədə problemlərin olması ilə bağlı çətin uşaqlar 3 qrupa ayrılır:
Təcavüzkar uşaqlar
Yüksək emosionallığa malik uşaqlar
Hədsiz dərəcədə utancaq, hər şeydən tez təsirlənən, küsəyən, həyəcanlı uşaqlar

# CİNSİ TƏRBİYƏ

Tarixən istər ailədə, istərsə də cəmiyyətdə tərbiyəyə fərqli yanaşılıb. Qızlar bir, oğlanlar başqa cür tərbiyə olunub.  Bu prosesin necə qurulması psixologiyada cinsi tərbiyə problemi altında öyrənilir. Xüsusilə, oğlanlarda feminizasiyanın, qızlarda maskulinizasiyanın artdığı bir dövrdə cinsi tərbiyənin psixoloji problemlərini öyrənməyə ciddi ehtiyac vardır. Bu sualların cavabını hazırkı mövzunun köməyi ilə nəzərdən keçirə bilərsiniz.

**CİNSİ TƏRBİYƏ**- uşaqların psixoseksual inkişafının qanunauyğunluqlarının, cinslərarası münasibətlərin formalaşması, hiss mədəniyyətinin aşlanması, qadınlıq və kişilik keyfiyyətlərinin tərbiyə olunması və inkişaf etdirilməsindən ibarətdir.

# Cinsi inkişafın ikinci dövrü və mərhələləri

**Birinci mərhələ:11-13 yaş**

**İkinci mərhələ:14-15 yaş**

**Üçüncü mərhələ:16-18 yaş**

# Cinsi dimorfizim

**Cinslər arasında morfoloji, fizioloji  və psixoloji şərtlərin formalaşması zəminində oğlanlarda və qızlarda cinsi xüsusiyyətlər əmələ gəlir.  Cinsi xüsusiyyətlər uşaqların yaş xüsusiyyətləri  ilə vəhdətdə təzahür edir.  Cinsi xüsusiyyətlər dixotomik xarakter daşıyır.**

**PSİXOSEKSUAL İNKİŞAF**

fərdin qız və ya oğlan kimi formalaşması prosesidir.

**Uşaqlarda cinsi maraq, həvəs və meyllərin formalaşmasından asılı olaraq cinsi inkişaf prosesi 2 dövrə bölünür**

**1-ci dövr yenidoğulandan başlayaraq kiçik məktəbli yaşına qədər olan dövrü əhatə edir.**

**2-ci dövrdə yeniyetməlik yaş dövrünə təsadüf edir və cinsi yetişmə sürətlənir.**

# Cinsi yetişkənlik dövründə qızlarda orqanizimdə əmələ gələn dəyişikliklər

**Davranış və psixi hallarında bəzi dəyişikliklərə səbəb olur.**

**Emosional və tez yorulmalarına səbəb olur.**

# OĞLANLARIN VƏ QIZLARIN TƏRBİYƏSİNDƏ GEYİM

**Məlumdur ki, bir yaşına qədər oğlan və qızların qarderobu yalnız rəngiylə bir-birindən fərqləndirilir. Hərçənd ki, ailədə oğlan uşağının geyimlərində ən çox mavi rəngə üstünlük verirlər.**

**Oğlan və qız uşaqlarında rəng və geyim stereotipini valideynlər formalaşdırır. Beləki oğlan uşaqlarında mavi və tünd rənglər, qız uşaqlarında isə çəhrayı qız paltarları üstünlük təşkil edir.**

# TƏLİM PSİXOLOGİYASI

Psixologiyada daha çox öyrənilən və hələ də öyrənilməkdə davam edən mövzulardan biri də - təlim psixologiyasıdır. Çünki hər bir normal şəxs təhsil alır. Təlim fəaliyyətinə qoşulur. Öyrənir və mənimsəyir. Elmi biliklərə yiyələnir. Bu prosesdə bir sıra çətinliklərlə üzləşir. Təlim psixologiyasını bilmək bu məsələlərin cavablandırmağı bacarmaq deməkdir. Digər tərəfdən, təlim psixologiyası bizə həmin prosesi müasir texnologiyaların köməyi ilə daha səmərəli şəkildə tənzimləməyin yollarını da öyrədir.

# TƏLİM

**müəllimin rəhbərliyi altında şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesidir.**


TƏLİMİN VƏZİFƏLƏRİ
Şagirdlərdə təlimə müsbət münasibət formalaşdırmaq
Şagirdləri biliklərlə silahlandırmaq
Şagirdlərdə bacarıq və vərdişlərin formalaşdırılması
Şagirdlərin dünya görüşünü, əxlaqi keyfiyyətlərini formalaşdırmaq

# TƏLİMİN PSİXOLOJİ STRUKTURU

1. İDRAK TƏLABATLARI

2. TƏLİM MOTİVLƏRİ

3. TƏLİMİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

4. TƏDRİS İŞLƏRİ

5. NƏZARƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# Təlimin müvəffəqiyyəti üç amildən asılıdır

Nəyi öyrədirlər? Təlimin xarakteri öyrənilən materialın məzmunu və sistemindən asılıdır.

Kim və necə öyrədir? Təlimin xarakteri müəllimin şəxsi keyfiyyətindən, pedaqoji və metodiki ustalığından, şagirdlərin psixologiyasını dərindən bilməsindən və s. asılıdır.

Kimi öyrədirlər? Təlimin xarakteri şagirdin fərdi xüsusiyyətlərindən, təlimə münasibətindən, meyl və maraqlarından asılıdır.

**Pedaqoji psixologiyada təlim nəzəriyyələri**

İzahlı illustrativ təlim (Ənənəvi)

Proqramlaşdırılmış təlim

Fikri əməliyyatların mərhələlər üzrə təşəkkülü nəzəriyyəsi

Problemli təlim

Təlim nəzəri təfəkkürün inkişafı kimi

Tərbiyəedici təlim

# TƏLİM VƏ PSİXİ İNKİŞAF

**Alman psixoloqu ŞTERN**

**Təlim inkişafın arxasınca gedir və ona uyğunlaşır.**

**Rus psixoloqu VIQOTSKİ**

**Təlim inkişafdan irəli gedir və onu öz arxasınca aparır.**

# ÖYRƏNMƏYƏ QABİLLİK

Heç də hər kəs təlim fəaliyyətində elmi biliklərdən eyni səviyyədə yararlana, onları mənimsəyə bilmir. Bunun bir çox psixoloji və pedaqoji tərəfləri vardır. Əgər sizin də belə çətinlikləriniz varsa, deməli öyrənməyə qabilliyinizin səviyyəsini və səbəblərini araşdırmalısınız. Gəlin bu işə birlikdə başlayaq. Öyrənməyə qabilliyin psixoloji məsələlərini nəzərdən keçirərək axtardığımız sulları cavablandıraq.

***Öyrənməyə qabillik*** – **İnsanın bilik, bacarıq və vərdişləri mənimsəməsinin sürət və keyfiyyətinin fərdi göstəricisidir.**


Öyrənməyə qabiliyin növü
Ümumi qabillik
Xüsusi qabillik
Bütün tədris fənnlərini mənimsəməsi
Ayrı-ayrı materialların mənimsənilməsi

# TƏLİMDƏ GERİ QALAN ŞAGİRDLƏRİN TİPİ

**I TİP**- məktəbli mövqeyini saxlayır, təlimə münasibəti müsbət amma öyrənməyə qabillik aşağıdır.

**II TİP**-məktəbli mövqeyini qismən və ya tamamilə itirmiş amma fikri fəaliyyətlərinin yüksək keyfiyyətləri ilə seçilir.

**III TİP**- məktəbli mövqeyini qismən və ya tamamilə itirmiş, təlimə münasibət mənfi, öyrənməyə qabillik aşağıdır.


ÖYRƏNMƏNİN MÜVƏFFƏQİYYƏTİNİ TƏMİN EDƏN AMİLLƏR
Daxili amillər
Xarici amillər


Öyrənmənin daxili amilləri
DİQQƏT
YÖNƏLİŞLİK


ÖYRƏNMƏNİN XARİCİ
AMİLLƏRİ
Məzmunu
Forması
Anlaşıqlılı
ğı
Çətinlik
dərəcələri
Əhəmiyyə
ti
Emosionall
ıq
Strukturu
Həcmi

# Öyrənmənin müvəffəqiyyətini təmin edən xarici amilləri

| | |
|---|---|
| **Məzmun** | Məlumatlar, anlayışlar, prinsiplər, qaydalar, bacarıq və vərdişlər təşkil edir. |
| **Forma** | Təlim materialı müxtəlif formada- əşyavi, obrazlı, sözlü, sinvolik şəkildə ifadə edilir |
| **Çətinlik dərəcəsi** | Öyrənmənin səmərəliliyinə, onun sürətinə və düzgünlüyünə bu amilin böyük təsiri vardır. |
| **Əhəmiyyəti** | Materialın əhəmiyyətlilik dərəcəsi müxtəlif sahələrlə bağlı ola bilər. Əgər təlim materialı heç cür faydalanmağa imkan vermirsə, onun öyrənilməsi bir o qədər səmərəsiz olacaqdır. |
| **Anlaşıqlılığı** | Materiallar daha tez mənimsənilməklə yanaşı, səhvlər az olur və material uzun müddət yaddan çıxmır. |
| **Strukturu** | Yeni ilə köhnə arasındakı əlaqənin necə və hansı yollarla yarandığına əsasən müəyyən edilir. |
| **Həcmi** | Ona daxil olan ünsürlərin miqdarı nəzərdə tutulur. |
| **Emosionallıq** | Buraya materialın cazibədarlığı, şagirdlərdə müəyyən hiss və emosiyalar yarada bilmək xüsusiyyətlərini aid etmək olar. |

# TƏLİM PROSESİNDƏ MOTİVASİYA

Motivasiyasız fəaliyyət yoxdur. Təlim isə əsas fəaliyyət növüdür. Əgər biz bu günkü dərsimizə motivasiyasız başlayarıqsa, nəticələr səmərəli olmayacaq. Ona görə də gəlin əvvəlcə öz fəaliyyətimizi motivləşdirək. Məsələn, mən sizə belə bir tapşırıq vermək istəyirəm: «Hesab edək ki, biz bir qədər sonra mühüm bir problemli situasiyanı həll etməliyik. Onun həlli qalan təhsil müddətində əldə edəcəyimiz uğurlara yol açacaq. Ona görə bütün diqqətimizi bir fikir ətrafında toplayaq – təlim sayəsində əldə edəcəyimiz və arzuladığımız hər şeyi vizuallaşdıraq. Gözlərinizi yumaraq bir neçə dəqiq ərzində xəyalınızda bu arzularınızı canlandırmağa çalışın!»

# MOTİV

İnsan beynində əks olunaraq onu fəaliyyətə təhrik edən səbəbdir.

# MOTİVASİYA

təhriklə fəaliyyətin məqsədi arasındakı əlaqə və münasibətlərin açılmasında ifadə olunur.


MOTİVLƏRİN NÖVLƏRİ
Situativ və geniş motivlər
Fəaliyyəti nəticəsinə yönələn və onun özünə doğru yönələn motivlər
Eqoistik və ictimai əhəmiyyətli motivlər

# MÜASİR DƏRSƏ VERİLƏN TƏLƏBLƏR

Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür

Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir

Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərsin məqsəd və məzmununa, şagirdlərin dərketmə imkanlarına uyğun olaraq müvafiq metod və vasitələr kompleksi müəyyənləşdirilməlidir.

Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalıdır. Dərs təşkilati mütəşəkkilliyi ilə seçilməlidir: vaxtında başlanmalı, yüksək intizama əsaslanmalı, optimal tempdə olmalı, intensiv qurulmalıdır.

Dərsdə əlverişli psixoloji iqlim, müsbət emosional vəziyyət yaradılmalıdır. Dərsdə müəllim və şagirdlər arasında qarşılıqlı hörmət, inam, pedaqoji əməkdaşlıq, xoş əhval-ruhiyyə, müsbət zehni hisslər hakim olmalıdır.

# TƏLİMİN FƏRDİLƏŞMƏSİ VƏ DİFFERENSİASİYASI

**Təlimin differensiasiyası**
təlim prosesində şagirdlərin müəyyən xüsusiyyətlərinin nəzərə alınaraq qruplaşdırılmasıdır.

**Təlimin fərdiləşdirilməsi**
forma və üsullarından asılı olmayaraq təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması deməkdir.


Ziqzaq
Venn dioqramı
Avarium
Layihə
FƏAL-İNTERAKTİV TƏLİM METODLARI
Beyin həmləsi
Təqdimatlar
Müzakirələr
Rollu oyunlar
Diskusiya
Debatlar
Problem situasiya
Modelləşdirmə

# PROBLEM SİTUASİYA

***Birinci*** tip problem situasiya ən çox o zaman meydana gəlir ki, şagird əvvəl əldə etmiş olduğu biliklərdən yeni praktik şəraitdə istifadə etmək zərurəti qarşısında qalsın. Bu zaman şagird bilik, bacarıq və vərdişinin qənaətləndirici səviyyədə olmaması faktını dərk edir ki, bu da onun idrak maraqlarının oyanmasına, yeni biliklər axtarmasına səbəb olur.

***İkinci*** tip problem situasiya məsələnin mümkün olan nəzəri həlli yolu ilə seçilmiş üsulun praktik olaraq həyata keçirilməsinin qeyri-mümkünlüyü arasındakı ziddiyyətdən doğur.

***Üçüncü*** tip problem situasiya tədris tapşırıqlarını yerinə yetirərkən əldə edilmiş praktik nəticələrlə, şagirddə həmin nəticələri nəzəri olaraq əsaslandırmağa aid biliyin olmaması arasında ziddiyyət olduqda meydana gəlir.

***Dördüncü*** tip problem situasiya daha geniş yayılmış tipdir. Bu tip problem situasiya o zaman yaranır ki, şagird qarşıda qoyulmuş məsələni həll etmək yollarını bilmir, tədris və ya həyat situasiyasında yeni faktları izah etməkdə çətinlik çəkir, daha doğrusu, əvvəlki biliklər yeni faktı izah etmək üçün kifayət etmir.

# PEDAQOJİ FƏALİYYƏTİN VƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN PSİXOLOGİYASI

Müəllim böyük qüvvədir. Onun öz şagirdlərinə, tələbələrinə göstərdiyi təsir əvəzolunmazdır. Pedaqoji fəaliyyətdəki uğurlar da müəllimin şəxsi keyfiyyətləri ilə ölçülür. İstərdim ki, sizinlə birlikdə həmin keyfiyytlərin siyahısını hazılayaq. Təşəbbüs göstərin və öz düşüncələrinizi söyləyin. Pedaqoji fəaliyyətin və müəllim şəxsiyyətinin psixologiyası dedikdə sizdə hansı təsəvvürlər yaranır?

**PEDAQOJİ FƏALİYYƏT** cəmiyyətin yaşlı üzvlərinin məqsədi gənc nəsli tərbiyə etməkdən ibarət olan fəaliyyətdir.

# PEDAQOJİ FƏALİYYƏTİN STRUKTURU

1 **Motivləri-**İnsan yetişdirməklə əlaqədar ictimai tələbat

2 **Məqsədi-** Cəmiyyət üzvlərinin tərbiyəsi

3 **Predmeti-** İnsan. Uşaq öz fəaliyyətinin həm obyekti, həm də subyekti kimi çıxış edir.

4 **Vasitələri-** Məktəbdə təlim və tərbiyənin məzmunu, forması və metodları

5 **Şəraiti-** Cəmiyyətin böyüməkdə olan gənc nəslin tərbiyəsinə qayğısı, məktəbin maddi cəhətdən təchiz olunması

6 **Nəticəsi-** Şagird şəxsiyyətinin əlamət və keyfiyyətlərinin formalaşması

**Pedaqoji fəaliyyət zamanı müəllimin yerinə yetirdiyi məqsəd və vəzifələr:**

1) cəmiyyətin sosial sifarişindən doğan ümumi ilkin məqsədlər;

2) təlim fənninin spesifikliyindən irəli gələn konstruktiv məqsədlər;

3) sinfin konkret tərkibi ilə bağlı olan operativ pedaqoji məqsədlər.


Müəllimin funksiyaları
Tərbiyəedici
İnkişafetdirici
Qnostik
Kommunikativ-öyrədici
Təşkilatçılıq
Konstruktiv


Müəllimin pedaqoji bacarıq və vərdişlər
Məlumatverici
inkişafetdirici
İstiqamətləndirici
Səfərbəredici


Müəllimin pedaqoji qabiliyyətləri şərti olaraq 3 qrupa bölünür:
Şəxsi
Didaktik
Təşkilati-kommunikativ

# ŞƏXSİ QABİLİYYƏTLƏR

1. uşaqlara hüsn-rəğbətbəsləmək;
2. dözümlülük və özünü ələ ala bilmək;
3. dərs zamanı şagirdlərlə iş aparmaq üçün
4. optimal psixi vəziyyət yarada bilmək və s.

**Didaktik qabiliyyətlər**

müəllimin izah edə bilmək qabiliyyəti

ekspressiv-nitq (natiqlik) qabiliyyəti

nəzəri qabiliyyətləri (akademik qabiliyyət).

## Təşkilati-kommunikativ qabiliyyətlər

1. təşkilatçılıq qabiliyyəti;
2. avtoritar qabiliyyət;
3. kommunikativ qabiliyyət;
4. perseptivqabiliyyət;
5. suqqestik qabiliyyət;
6. pedaqoji mərifət;
7. pedaqoji təxəyyül;
8. diqqəti paylaya bilmək qabiliyyəti;
9. pedaqoji refleksiya.


Müəllimin davranış modeli
(L.D Stolyarenko və b.)
Avtoritar model
Hiporefleks
Təmassız model
Fəal qarşılıqlı təsir modeli
Diktator
Fərqləndirici diqqət modeli
Dəyişməyən reaksiya modeli
Hiperrefleks

# TƏLİMDƏ PEDAQOJİ QİYMƏTLƏNDİRMƏ

**Tələbələrə bu suallarla müraciət olunur:**

1. **Qiymətləndirməyə münasibətiniz necədir?**
2. **Başqalarının sizi qiymətləndirməsinə necə baxırsınız?**
3. **Sizcə müəllimlər qiymətləndirməni ədalətli apara bilirlərmi?**

**Bütün bu məsələlər təlimdə pedaqoji qiymətləndirmənin psixoloji məsələlərində öz izahını tapır. Ona görə də gəlin birlikdə həmin mövzunu nəzərdən keçirək. Bu sahədəki psixoloji yanaşmaları öyrənək.**

**Pedaqoji qiymət 2 funksiyanı yerinə yetirir**

a) məlumatverici funksiya

Birinci halda, şagird aldığı pedaqoji qiymət vasitəsilə özünün güclü və zəif cəhətləri haqqında məlumat əldə edir.

b) nəzarətdeici funksiya.

İkinci halda isə pedaqoji qiymət nəzarət amili kimi özünü göstərir, tədris uğurları və uğursuzluqları üçün rəğbətləndirmə və cəzalandırma vasitəsi kimi meydana çıxır.

**Müəllimin qiymətləndirmə meyarları əsasən iki istiqamətdə aparılır**

Təlim materialı haqqında biliklərə görə

Bu materialın başa düşülməsi dərəcəsinə və tapşırıqların yerinə yetirməsi səviyyəsinə görə



QİYMƏTLƏNDİRMƏ
Beynəlxalq
Məktəbdaxili
Milli
Diaqnostik
Summativ
Formativ

# DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ VƏ NÖVLƏRİ

Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir.

Müsahibə

Söhbət

Müşahidə

Valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq

Tapşırıqlar

## FORMATİV QİYMƏTLƏNDİRMƏ VƏ NÖVLƏRİ

Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir.

- Müşahidə
- Şagirdlərin şifahi cavabları
- Test tapşırıqları
- Şagirdlərin yazı işləri

## SUMMATİV QİYMƏTLƏNDİRMƏ VƏ NÖVLƏRİ

Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir.



# İSTEDADLI UŞAQLAR

İstedadlı uşaqlarla iş təhsil prosesinin əsas problemlərindən biridir. Buna səbəb istedadlı uşaqlara fərdi yanaşmanın zəruriliyi və onların inkişaf etdirilməsidir. Ona görə də istedadlı uşaqların psixoloji xüsusiyyətlərini öyrənmək vacibdir. Çünki onlarla iş aparmaq üçün bu sahədə hazırlıq tələb olunur.

**İSTEDAD**

bir və ya bir neçə fəaliyyətin müvəffəqiyyətli icrası üçün şərt olan qabiliyyətlərin özünəməxsus birliyidir.


İstedadın növləri
Bədii istedad
Akademik istedad
Konstruktiv istedad
Psixomotir istedad
Sosial istedad
Pedaqoji istedad

**İstedadlı uşaqların psixoloji xüsusiyyətlərə malikdir**

**Özlərinə və ətrafdakılara qarşı yüksək tələbkarlıq, həqiqətə, ədalətə, harmoniyaya qarşı həssaslıq**

**Zəngin, canlı və parlaq təxəyyülə malik olurlar**

**Yüksək həssaslıq, emosional asılılıq, müvazinətsizlik, hövsələsizlik, çılqınlıq**

**Tədqiqatçılığa meyillilik**

**Güclü hafizə, inkişaf etmiş nitq və abstrakt təfəkkür**

# İstedadlı uşaqlarla fərdi işin təşkili

Müəllim və psixoloq məktəbdə istedadlı şagirdlərin yaradıcılıq qabiliyətlərinin aşkara çıxarılması üçün optimal şərait yaratmalıdır.

Müəllim və psixoloq məktəbdə istedadlı şagirdlərin yaradıclıq qabiliyyətlərini dəqiq müəyyənləşdirməlidir.

Müəllim və psixoloq məktəbdə istedadlı şagirdlərin yaradıclıq qabiliyyətlərini n inkişaf təmin etmək.

# PSİXOLOJİ-PEDAQOJİ XARAKTERİSTİKA

Ünsiyyətdə olduğunuz insanları xarakterizə etmək istərdinizmi? Buna nədən başlamaq lazımdır? Hansı xüsusiyyətlər burada əhatə olunmalıdır? Bunları öyrənmək üçün şagirdlərin psixoloji-pedaqoji xarakteristikalarının necə müəyyən edilməsini bilmək lazımdır.

# Şagird şəxsiyyətinin öyrənilməsi və ona psixoloji pedaqoji xarakteristika tərtibi üçün sxem

- Şagird haqqında ümumi məlumat
- Şagirdin ailə şəraiti və ailə tərbiyəsi
- Şagirdin mənsub olduğu sinif kollektivinin xarakteristikası
- Şagirdin kollektivə münasibəti
- Şəxsiyyətin istiqaməti
- İddia səviyyəsi
- Şagirdin müxtəlif fəaliyyət növlərində iştirakı
- İdrak fəaliyyətinin xarakteristikası
- Emosional-iradi sferasının xüsusiyyətləri
- Şəxsiyyətin fərdi-psixi xassələri

## Sinif kollektivinin psixopedaqoji xarakteristikasının təxmini sxemi

- Sinif kollektivi haqqında ümumi məlumat.
- Sinif kollektivinin aid olduğu yaş dövrünün psixologiyası haqqında yığcam məlumat verin.
- Sinif kollektivində qarşılıqlı münasibətlər.
- Sinif rəhbəri haqqında ümumi məlumat.
- Sinif kollektivinin təlim  fəaliyyətin məzmunu və xarakteri.

# Dərsin psixoloji təhlili

- Dərs haqqında ümumi məlumat.
- Dərsdə sorğunun təşkilinin psixoloji təhlili
- Yeni materialın verilməsinin psixoloji təhlili:
- Dərs zamanı müəllimin davranışının psixoloji təhlili